Azadlıq Radiosu

View the original article

DÜNYA XƏBƏRLƏRİ

# Kiyev və Odessaya zərbələrdən ölənlər var

Sentyabr 25, 2026




Kiyevə zərbələr

Bu gün – sentyabrın 25-də günorta saatlarında Rusiyanın Ukraynanın paytaxtı Kiyevə dron hücumu nəticəsində üç nəfər həlak olub. Bu barədə şəhərin meri **Vitali Kliçko** məlumat verib.

**"İlkin məlumata görə, dronun düşdüyü ofis binasının yaxınlığındakı dayanacaqda avtomobillər alışıb. Orada üç nəfərin meyiti tapılıb. Daha yeddi nəfər isə yaralanıb",** –Kliçko Teleqram kanalında yazıb.

+++

Sentyabrın 25-nə keçən gecə Rusiya Ukraynaya dron və raketlərlə irimiqyaslı hücum edib. Kiyev şəhəri, Kiyev və Odessa vilayətləri hədəfə alınıb. Ölənlər var.

Kiyev meri **Vitali Kliçko**nun Telegram-da yazdığına görə, dronun çoxmərtəbəli yaşayış binasına çırpılması nəticəsində 7–10-cu mərtəbələrdə yanğın başlayıb. Digər bir dron isə 25 mərtəbəli başqa binanın dördüncü mərtəbəsinə dəyib.

Kiyevə hücum nəticəsində 14 yaşlı oğlan həlak olub, daha üç nəfər yaralanıb. Yaralılardan birinin vəziyyətinin ağır olduğu bildirilir.

Rusiya hərbçiləri Odessa şəhərinə və vilayətinə də növbəti zərbə endiriblər. Bir qadın həlak olub, daha bir nəfər isə yaralanıb.

ДСНС України



**#Одещина: через російські удари за попередньою інформацією загинула жінка та постраждав чоловік**

■ В Одеському районі пошкоджена будівля поштового терміналу, який вже був під прицілом ворога. За іншими локаціями пошкоджені складські приміщення, виникла пожежа.

■ В Одесі через російську атаку виникла пожежа у приватному житловому будинку.

Роботу вогнеборців суттєво ускладнювали постійні сигнали повітряної тривоги, наразі усі пожежі ліквідовані. На місцях працювали понад 140 рятувальників.

Сайт • Fb • X • IG • YT • TT

😢 81 ❤️ 3

4.3K 👁 Sep 25 at 06:21

Sentyabrın 25-i səhər saatlarında Rusiyanın Zaporojye şəhərini atəşə tutması nəticəsində tibb mərkəzində yanğın başlayıb, təcili tibbi yardım maşınları zədələnib, bir nəfər yaralanıb.

**Rusiya Müdafiə Nazirliyi** isə Kiyev vilayətində dron anbarını, Odessa vilayətində isə iki logistika mərkəzini və Reni limanını vurduğunu bildirib.

Ukrayna Hərbi Hava Qüvvələrinin məlumatına görə, Rusiya gecə hücumları zamanı 295 zərbə dronundan istifadə edib, onlardan 267-si vurulub. Bu rəqəmləri müstəqil mənbələrdən təsdiqləmək mümkün olmayıb.

## Ukraynanın zərbələri

Ukrayna dronları isə ötən gecə Rusiyanın Perm diyarında, Voronej, Rostov və Ulyanovsk vilayətlərində sənaye müəssisələrinə genişmiqyaslı hücumlar təşkil edib. Xəsarət alanlar var.

Exilenova+



Еще в ленту с Перми.

2.47K 213 167 91 46 19 17 13 12 12 2

97.6K Sep 25 at 05:08

Ulyanovsk vilayətinə hücum nəticəsində biri uşaq olmaqla, səkkiz nəfərin xəsarət aldığı açıqlanıb.

Rostov vilayətinin qubernatoru **Yuri Slyusar** region səmasında 50 dronun vurulduğunu bildirib. Onun sözlərinə görə, hücum nəticəsində Novoşaxtinsk Neft Məhsulları Zavoduna ziyan dəyib, müəssisə fəaliyyətini müvəqqəti olaraq dayandırıb. Xəsarət alan olmayıb.

Rusiya Müdafiə Nazirliyi ölkənin 18 regionu və Krım yarımadası üzərində Ukraynaya məxsus 600-ə yaxın dronun vurulduğunu bildirib. Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı zərbələri hələlik şərh etməyib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur